# Peloninin reallaşmayan avantürası

## ABŞ konqresmeninin Azərbaycana səfəri ictimaiyyətin sərt qınağına və hiddətinə səbəb olmuşdur

Müasir dünyanın ən miqyaslı və mötəbər beynəlxalq tədbirlərindən olan COP29-un Bakıda keçirilməsi beynəlxalq birliyin ölkəmizə verdiyi önəmin və Azərbaycanın bir dövlət olaraq siyasi nüfuzunun göstəricisidir. Belə bir möhtəşəm tədbirin postsovet məkanında ilk dəfə olaraq məhz respublikamızda reallaşması həm də paytaxtımızın dünyanı narahat edən bəşəri problemlərin müzakirəsi üçün əlverişli məkan olduğunu təsdiqləyir. COP29 həmçinin təkcə yerləşdiyimiz regiona deyil, daha geniş coğrafiyaya beynəlxalq diqqətin artmasını göstərir.

COP29-da iştirak etmək üçün dünyanın bir sıra dövlət lideri Bakıya gəlmişdi. Bu dövlətlərdən 30-dan çoxu Avropanın, o cümlədən 10-dan çoxu Avropa İttifaqının üzvüdür. Bu amilin son illər dövlətimizə və xalqımıza qarşı aparılan intensiv antitəbliğat və qarayaxma kampaniyası fonunda mühüm önəmi var. Xüsusən Avropa İttifaqı müstəvisində və Avropa Parlamentində Vətən müharibəsindəki qələbəmizə qarşı gözügötürməzlikdən qidalanan qarayaxma reallığında qitənin bu siyasi institutlarını təmsil edən dövlətlərin rəhbərlərinin COP29-da iştirakı Azərbaycana qarşı yürüdülən qərəzin səmərə vermədiyinin göstəricisidir. Aİ üzvləri olan İtaliya, İspaniya, Belçika, Danimarka, Finlandiya, Çexiya, Macarıstan kimi ölkələrin Bakıda dövlət və ya hökumət rəhbərləri qismində iştirakı əsas etibarilə Fransa tərəfindən gerçəkləşdirilən anti-Azərbaycan əməllərinə qitə təmsilçilərinin, sözün əsl mənasında, məhəl qoymamaları deməkdir.

Çoxsaylı qarayaxma aksiyasının və beynəlxalq media orqanlarında dərc edilmiş qərəz dolu sifarişli məqalələrin nəticəsiz qaldığını görən Qərbin bir sıra dairələri COP29-u gözdən salmaq üçün cəhdlərini bu dəfə aşkar formatda davam etdirirlər. Bakıda keçirilən qlobal miqyaslı tədbirə bir ilə yaxındır şübhə yaratmağa cəhd edən bir sıra ölkə Azərbaycanın əldə etdiyi bu siyasi uğura mənfi rəy formalaşdırmaq üçün müxtəlif mövzulara əl atıb - "erməni əsirləri"ndən tutmuş enerji daşıyıcıları ixrac edən ölkənin iqlim dəyişmələrinə dair konfransa evsahibliyi "edə bilməz" bəhanəsinədək. COP29-un qərbdəkilərin ümidlərinin əksinə olaraq bütün dünyada böyük maraq və diqqət cəlb etməsi, onların gizləndikləri qərəz təbliğatının arxasından çıxıb Azərbaycanın uğurlarına aşkar şəkildə kölgə salmaq məcburiyyətində qalmalarına səbəb oldu.

### Qərəzin ümidinə qalmış geosiyasət

Bölgəmizdə, ələlxüsus da Azərbaycanda siyasi gözləntilərinin reallaşmadığını görən kollektiv Qərb əlində olan vasitələrlə yanaşı, erməni diasporunun da imkanlarından geniş şəkildə yararlanmağa çalışır. Bu qərəz mexanizmində aparıcı rollarından biri də erməni lobbisinin ABŞ konqresində və senatında təmsil olunan üzvlərinə həvalə olunub. ABŞ-nin qanunverici orqanının hər iki palatasında erməni diasporunun maliyyəsi və sifarişi hesabına anti-Azərbaycan qətnamələrinin qəbulunda, azərbaycanafob mühitin formalaşmasında canfəşanlıq edən senator və konqresmenlər uzun illərdir ki, xalqımıza qarşı böhtan kampaniyasının aparıcı fiqurları qismində çıxış edirlər. Son bir il ərzində isə onlar COP29-a münasibətdə qarayaxma aksiyalarının ən üzdə olan simalarına çevriliblər.

Konqresmen Frank Peloni ABŞ-nın qanunverici orqanında Azərbaycana qarşı düşmən mövqeyində köklənmiş ən qatı ermənipərəstlərdən biridir. Onun uzun illər boyu ölkəmizə qarşı ədalətsiz aksiyaların iştirakçısı olması, Amerika ictimai rəyində xalqımıza münasibətdə yanlış və neqativ rəyin formalaşmasındakı eksklüziv rolu hər bir azərbaycanlıya məlumdur. Bu baxımdan, onun Bakıda uğurla keçirilən iqlim dəyişmələri ilə mübarizəyə dair qlobal konfransda peyda olması dəstəklədiyi erməni separatizmi ilə mübarizədə minlərlə şəhid vermiş Azərbaycan xalqının hər bir üzvünün hiddətinə səbəb oldu. Aydındır ki, COP29 BMT-nin himayəsi altında keçirilir və qonaqları da bu ali beynəlxalq təşkilat dəvət edir. Bununla belə, Bakıya gələn Peloninin milli QHT sektorunun təmsilçiləri simasında bütün xalqımızın ona qarşı barışmaz münasibətini görməsi təsadüfi deyildir.

### Gizlədilməyən ermənipərəstlik

F.Peloninin Azərbaycana səfəri ictimaiyyətin sərt qınağına və hiddətinə səbəb olmuşdu. COP29-da iştirak etməyə, Bakıda çoxsaylı görüşlər keçirməyə gələn amerikalı konqresmen hava limanında Azərbaycan mediasının suallarını cavablandırmayıb. Onun gəlişindən xəbər tutan yerli QHT rəhbərləri və ictimai fəallar isə qalacağı hotelin qarşısına toplaşıblar. Onların dağılışmasını gözləmək üçün ABŞ konqresmeni marşrutunu dəyişib, hotelə getməyib, qəfil COP29-da görünüb. Burada yerli media ondan Azərbaycana qarşı iftira kampaniyaları üçün hər ay erməni lobbi təşkilatlarından nə qədər maliyyə alması, lobbiçilik xidmətləri üçün tariflərinin neçə dollar olması ilə maraqlanıb. F.Peloni bu dəfə də sualları cavablandırmaqdan çəkinib. Ona ABŞ-nin qanunvericilik orqanından təmsilçilərin iştirakı ilə COP29-da keçirilən brifinqdə iştirak etmək təklif olunsa da, ictimai qəzəblə qarşılanan F.Peloni brifinqə qatılmaqdan imtina edib. Onu hoteldə Azərbaycanın bir qrup QHT rəhbərləri və ictimai fəallar etiraz aksiyası ilə qarşılayıblar.

Bir daha xatırladaq ki, F.Peloni ABŞ-də islamafob, türkofob, maliyyə fırıldaqçısı, korrupsioner konqresmen kimi məşhurdur. Onun fəaliyyəti Azərbaycana qarşı iftiralar üzərində qurulub. Üzdəniraq konqresmen ABŞ-də erməni lobbisinin maraqlarını müdafiə edir və dəfələrlə ölkəmizin suverenliyinə və ərazi bütövlüyünə açıq hörmətsizlik nümayiş etdirib. Azərbaycan xalqını təhqir etmiş ermənipərəst ABŞ konqresmeni Frank Peloni artıq ölkəni tərk edib.

Bir faktı da qeyd edək ki, amerikalı konqresmenin Bakıya gəlib Azərbaycan haqqında olan kin dolu münasibətinin dəyişəcəyini gözləmək əbəs və sadəlövhlük olardı. Buna əmin olmaq üçün çox gözləmək lazım olmadı: ABŞ-yə dönən Peloni keçirdiyi mətbuat konfransında ölkəmizin ünvanına həmişəki qərəzini püskürtməkdə davam edib. Pelonikimilərinin anlamadıqları, yaxud bəlkə də anlayıb erməni pullarının müqabilində büruzə vermədikləri bir həqiqət var. O da bundan ibarətdir ki, bu insanlar 30 ildir qərəz dolu fəaliyyətlərinin heç bir məhsulunu görə bilməyiblər. Nəticə Xankəndidə dalğalanan Azərbaycan bayrağıdır!

Peloni ilə yanaşı, COP29-a gələn ABŞ qanunvericiləri arasında daha iki ermənipərəst - senator Ed Marki və Şeldon Uaythaus da var. Onlar keçirdikləri brifinqdə söylədikləri qızışdırıcı fikirlərlə məqsədlərinin yüksək səviyyədə təşkil edilmiş və beynəlxalq əks-sədaya səbəb olmuş COP29-un gedişatına kölgə salmaq cəhdi olduğunu nümayiş etdiriblər.

ABŞ senatorları və konqresmenlərinin davranışlarının ən azı iki məqsədi var: birincisi, COP29-u gözdən salmaq, ikincisi isə bölgəmizdə sabitliyin bərqərar olması üçün Ermənistanla Azərbaycan arasında yekun sülhün imzalanmasına maneə yaratmaq. Qərbin regiondakı siyasətinin əsasını məhz bu, yanlış yanaşma təşkil edir. Ən çətin illərdə belə hədəflərinə çata bilməyən bu dairələrin indiki reallıqda nəyəsə nail olacaqları mümkün deyil. O ki qaldı Peloni kimi konqresmenlərə, uzun illər boyu erməni lobbisinə xidmət edən, rüşvət üstündə və dövlət maraqlarına xəyanətə görə quru yurdda qalan belə insanlar həmişə olduğu kimi yenə də yalnız öz acı talelərini yaşayacaqlar.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 20 noyabr (№ 255).- S.13.